# QƏRİB MEHDİ SÖZÜNÜN İŞIĞINDA

**Son vaxtlar Gəncə ədəbi mühitində canlanma özünü göstərməkdədir. İstər AYB Gəncə bölməsində, istər şəhərin elm, mədəniyyət və təhsil müəssisələrində bir-birindən maraqlı tədbirlər, müzakirələr və görüşlər keçirilir. Bu günlərdə şəhərin mərkəzi kitabxanasının oxu zalında daha bir tədbir sərgilənmişdi. Qocaman yazıçı-publisist, respublikanın Əməkdar jurnalisti Qərib Mehdinin 46-cı kitabının təqdimat mərasimi olmuşdur. "Qərib müəllim, sizin ilk qələm məhsulunuz "İşıq" əsəri bütün sənət yolunuza öz işığını salıb. Sizin sənət işığınız bizim də gözümüzə işıq oldu, bizi də sənət meydanına gətirdi".**

Bu sözlər görkəmli Azərbaycan yazıçısı, mahir söz ustası Qərib Mehdinin növbəti - 46-cı kitabının işığına - müzakirəsinə toplaşmış ədəbi qüvvələrin bir nümayəndəsi - alim-şair, əməkdar mədəniyyət işçisi Sahib İbrahimlinin çıxışının əvvəlində səsləndi.

Qərib Mehdini yeni - "Ağpapağın nağılı" kitabının müzakirəsinə AYB Gəncə bölməsinin sədri Xəzangül Hüseynova başda olmaqla Gəncə ədəbi mühitinin nümayəndələri, ədəbiyyat həvəskarları, kitabxana işçiləri toplaşmışdılar. Çıxışlarda əsas işıq müəllifin ədəbi aləmin hər bir üzvünü narahat edən, düşündürən problemə - yazıçı-oxucu münasibətinə həsr olunmuş "Ağpapağın nağılı" povesti üzərinə salındı.




Povestdə sənət əsərlərinə qiymət verə bilməyən, hətta kitabı makulatura səviyyəsinə salmağa çalışan biganə məmurlar; öz qüruru, mənəvi aləmi ilə ucalan sənətkar və sənətkara qiymət verən xalq nümayəndələri arasında münasibəti ustalıqla qələmə alan yazıçının kitabdakı digər əsərləri haqqında da mülahizələr söyləndi. Xüsusilə Azərbaycan qadınının əxlaqi üstünlüklərini parlaq Ayda obrazı ilə canlandıran "Sınmış kart" əsərindən, "Mərdəkan esselərindən" söhbət getdi. Bu əsərlər barədə məclisin aparıcısı kitabxanaçı Aida Abdullayevanın ilk söz verdiyi AYB Gəncə bölməsinin sədri Xəzangül, yazıçı və şairlərdən Aləmzər Əlizadə, Zaur Quliyev, Fərruxə Umarova, Sahib İbrahimli, Mərkəzi Kitabxananın müdiri, əməkdar mədəniyyət işçisi Elmira Əliyeva, kitabın redaktoru, tənqidçi-jurnalist Firəngiz İdrisqızı, yazıçının qızı, müəllim Şəfəq Mehdiyeva daha ətraflı danışdılar.

Yazıçının haqqında yazdığı alim və sənət adamları: Vaqif Novruzov, Saleh Qurbanov, Fazil Sənan, Bayram Apoyev, Ümbülbanu Hacıyeva və başqaları adından bir nəfər - alim-şair Bayram Apoyev danışaraq özünün "Nizami Gəncəvinin pedaqoji görüşləri" əsəri haqqında Qərib Mehdinin təhlilindəki elmi incəliyə heyranlığını bildirdi. "İlham" ədəbi birliyindən ilk sənət addımlarını atan, indisə ədəbi aləmdə tanınan teatrşünas-tənqidçi Anar Bürcəliyev, şairlərdən İnqilab İsaq, İmamverdi Məmmədov, Zahir Şirani çıxışlarında "İlham"lı günləri xatırlatmaya bilmədilər.

Tənqidçi Sakit Təbib, nasir İqbal İsmayılov, şairlər Ramiz Təmkin, Rəsul Murovdağlı, Rəhim Qurbani, Əli Polad, Pəhləvan Əfəndi yazıçı Qərib Mehdinin yaradıcılığına yüksək qiymət verdilər. Ədəbiyyat həvəskarları Eldar İsayev, Fatimə Kəlbəcərlinin çıxışları da maraqla dinlənildi.

"Oxşarım Yovşan" şeirində özünün də dediyi tək müasir cəmiyyətimizə də insan mənəviyyatında kök salan naqisliklərə "süpürgə çəkən" (tənqidçi Sakit Təbibin fikri), mənəvi təmizliyi təbliğ edən Qərib Mehdinin növbəti kitabının müzakirəsi məhsuldar yazıçının yeni əsərlərinin yüksək dəyərini bir daha nəzərə çarpdırdı.



Çıxış edənlər bir fikri dönə-dönə vurğuladılar ki, Qərib Mehdi öz yaradıcılıq yolu ilə xalq yazıçısı adına, ömürlük Prezident təqaüdü almağa layiqdir.

Qeyd edək ki, bu təklif yazıçının bundan əvvəlki bir neçə kitabının müzakirəsində də yetərincə səslənmişdi.

**Firəngiz İDRİSQIZI,**
**Füzuli RÜZİGAR**

Ədalət.-2019.-31 oktyabr.S.5.